**AZƏRBAYCAN RESPUBLİKASI**

**“GƏLƏCƏYİN KİTABXANASI”**
**İCTİMAİ BİRLİYİ**

***ISSN (ISSN-L): 2959-1694***
***ISSN (Online): 2959-1708***

DOI 10.5281/zenodo.19649377

# KİTABXANA.AZ

**ELMİ-NƏZƏRİ VƏ TƏCRÜBİ JURNAL**

*Jurnal 2008-ci ildən nəşr olunur.*
*İllik dövriyyəsi ildə iki dəfədir (aprel-oktyabr).*

# №2(43) * Oktyabr

***Jurnalın bu sayı professor Xəlil İsmayılovun anadan olmasının 80 illik yubileyinə həsr edilir.***

**Seriyanın istiqamətləri:**

- Tarix elmi
- Humanitar və sosial elmlər tarixi
- Kitabxana işinin tarixi
- İnformasiya və sənəd menecmenti
- Kitabşünaslıq və nəşriyyat işinin tarixi

**Indexed in**

OpenAIRE

**Bakı – 2025**

**Təsisçi və baş redaktor:** **Şəfəq İSLAMOVA**
tarix üzrə fəlsəfə doktoru

**Redaktor:** **Eldəniz MƏMMƏDOV**
tarix üzrə fəlsəfə doktoru

**Redaksiya heyəti:**
**Xəlil İSMAYILOV**, tarix elmlər doktoru, professor
**İkram AĞASİYEV,** tarix elmlər doktoru, professor
**İlqar NİFTƏLİYEV,** tarix elmlər doktoru, dosent
**Cəbi BƏHRAMOV,** tarix üzrə fəlsəfə doktoru, dosent
**Sevda XƏLƏFOVA,** tarix üzrə fəlsəfə doktoru, dosent
**Pərviz KAZIMİ,** tarix üzrə fəlsəfə doktoru, dosent
**Tahirə ALLAHYAROVA,** fəlsəfə elmlər doktoru, professor
**Rəsmiyyə ABDULLAYEVA**, iqtisad elmlər doktoru, dosent
**Ələmdar BAYRAMOV,** filologiya üzrə fəlsəfə doktoru, dosent
**Elçin ƏHMƏDOV,** pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Knyaz ASLAN,** pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Hasan KESEROĞLU,** İnformasiya və sənəd menecmenti professoru (Kastamonu Universiteti, Türkiyə)
**Gülər DƏMİR,** İnformasiya və sənəd menecmenti dosenti (Kastamonu Universiteti, Türkiyə)

Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır.
Şəhadətnamə **№ 2492**. Qeydiyyat tarixi **16.01.2008**.

---

**Redaksiyanın ünvanı:** AZ 1096, Bakı şəhəri, K.Balakişiyev küçəsi 43/15
**Telefonlar:** (+994 12) 539 30 21 (122); (+994 50) 558 98 59
**E-mail:** shafaq.ace@gmail.com
Jurnal **“Füyuzat MMC”** Nəşriyyat və Poliqrafiya Mərkəzində nəşr olunur.

**© “Gələcəyin kitabxanası” İctimai Birliyi, 2025**
**© Kitabxana.az, 2025**

REPUBLIC OF AZERBAIJAN
АЗЕРБАЙДЖАНСКАЯ РЕСПУБЛИКА

"THE LIBRARY OF FUTURE" PUBLIC UNION

«БИБЛИОТЕКА БУДУЩЕГО» ОБЩЕСТВЕННОЕ ОБЪЕДИНЕНИЕ

***ISSN (ISSN-L): 2959-1694***
***ISSN (Online): 2959-1708***

# KİTABXANA.AZ

**SCIENTIFIC - THEORETICAL AND PRACTICAL JOURNAL**

The journal has been published since 2008. Annual turnover is twice a year (april-october).

# KİTABXANA.AZ

**НАУЧНО-ТЕОРЕТИЧЕСКИЙ И ПРАКТИЧЕСКИЙ ЖУРНАЛ**

Журнал издается с 2008 года. Годовой оборот два раза в год (апрель-октябрь).

***This issue of the magazine is dedicated to the 80th anniversary of the birth of professor Khalil Ismayilov.***

***Этот номер журнала посвящен 80-летию со дня рождения профессора Халила Исмаилова.***

**October * №2(43) * Октябрь**

**Series directions:**

- History science
- History of humanities and social sciences
- History of librarianship
- Information and document management
- History of bibliology and publishing

**Направления серии:**

- Историческая наука
- История гуманитарных и социальных наук
- История библиотечного дела
- Информационный и документный менеджмент
- История книговедения и издательского дела

**Baku – 2025**

**Баку - 2025**

**FOUNDER AND EDITOR-IN-CHIEF**:
**Shafag ISLAMOVA**
PhD in history

**Editor:**
**Eldaniz MAMMADOV**
PhD in history

## Editorial staff:

**Khalil ISMAYILOV**, doctor of science in history, professor
**Ikram AGHASIYEV**, doctor of science in history, professor
**İlqar NIFTALIYEV,** doctor of science in history, docent
**Jabi BAHRAMOV**, PhD in history, docent
**Sevda KHALAFOVA**, PhD in history, docent
**Parviz KAZIMI**, PhD in history, docent
**Tahira ALLAHYAROVA**, doctor of science in Philosophy, professor
**Rasmiya ABDULLAYEVA,** doctor of economy sciences, docent
**Alamdar BAYRAMOV**, PhD in philology, docent
**Elchin AHMEDOV**, PhD in pedagogy, docent
**Knyaz ASLAN**, PhD in pedagogy, docent
**Hasan KESEROGLU,** Professor of Information and Document Management (Kastamonu University, Turkey)
**Guler DEMİR,** Docent of Information and Document Management (Kastamonu University, Turkey)

**УЧРЕДИТЕЛЬ И ГЛАВНЫЙ РЕДАКТОР:**
**Шафаг ИСЛАМОВА**
доктор философии по истории

**РЕДАКТОР:**
**Эльданиз МАМЕДОВ**
доктор философии по истории

## Редакционная коллегия:

**Халил ИСМАИЛОВ,** доктор исторических наук, профессор
**Икрам АГАСИЕВ**, доктор исторических наук, профессор
**Ильгар Нифталиев,** доктор исторических наук, доцент
**Джаби БАХРАМОВ**, доктор философии по истории, доцент
**Севда ХАЛАФОВА**, доктор философии по истории, доцент
**Парвиз КАЗИМИ**, доктор философии по истории, доцент
**Тахира АЛЛАХЯРОВА,** доктор философских наук, профессор
**Расмия АБДУЛЛАЕВА,** доктор эклномических наук, доцент
**Аламдар БАЙРАМОВ**, доктор философии по филологии, доцент
**Эльчин АХМЕДОВ,** доктор философии по педагогике, доцент
**Князь АСЛАН,** доктор философии по педагогике, доцент
**Хасан КЕСЕРОГЛУ**, профессор менеджмента нформации и документа (Университет Кастамону, Турция)
**Гюльер Демир**, доцент менеджмента информации и документа (Университет Кастамону, Турция)

The journal is registered with the Ministry of Justice of the Republic of Azerbaijan. Certificate **No. 2492**. Registration date **16.01.2008**.
- - - - - - - - - - - - - - - - - - - - -
**Editorial address:** AZ1096, Baku city, K.Balakishiyev street 43/15
**Phones:** (+994 12) 539 30 21 (122);
(+994 50) 558 98 59
**Email:** shafaq.ace@gmail.com
The magazine is published in the Publishing and Printing Center “Fuyuzat LLC”.

Журнал зарегистрирован в Министерстве Юстиции Азербайджанской Республики. Свидетельство **№ 2492.** Дата регистрации **16.01.2008**.
- - - - - - - - - - - - - - - - - - - - -
**Адрес редакции:** AZ1096, город Баку, улица К.Балакишиева 43/15
**Телефоны:** (+994 12) 539 30 21 (122);
(+994 50) 558 98 59
**Электронная почта:** shafaq.ace@gmail.com
Журнал издается в Издательско-полиграфическом центре «Фуюзат ООО».

**© Public Union “The Library of Future”**
**© Kitabxana.az, 2025**

**© Общественное объединение «Библиотека будущего»**
**© Kitabxana.az, 2025**

KİTABXANA.AZ, 2025, oktyabr, №2(43), 5-15

**KİTABXANA İŞİNİN TARİXİ**
HISTORY OF LIBRARIANSHIP
***ИСТОРИЯ БИБЛИОТЕЧНОГО ДЕЛА***

========================================================

**UOT/UDC/УДК** ***02(091)(479.24)***

DOI 10.5281/zenodo.19635479

**Şəfəq İsrafil qızı İslamova**
*Azərbaycan Respublikası ETN*
*İqtisadiyyat İnstitutunun kitabxana*
*müdiri, tarix üzrə fəlsəfə doktoru*
***E-mail:*** shafaq.ace@gmail.com
*https://orcid.org/0009-0004-0546-3220*

# PROFESSOR XƏLİL İSMAYILOVUN ELMİ İRSİ: AZƏRBAYCAN KİTABXANAŞÜNASLIĞINA TÖHFƏ

***Xülasə:*** *Məqalədə professor Xəlil İsmayıl oğlu İsmayılovun beynəlxalq elmi və peşəkar innovativ fəaliyyəti, xüsusilə Azərbaycan kitabxanaşünaslıq elminə verdiyi töhfələr təhlil olunur. Onun Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyası (AKİİA) və Beynəlxalq Kitabxana Assosiasiyaları Federasiyası (IFLA) çərçivəsində keçirilən konfranslarda etdiyi çıxışlar, eləcə də qabaqcıl beynəlxalq təcrübənin ölkənin kitabxana sisteminə inteqrasiyasında oynadığı rol xüsusi vurğulanır. Eyni zamanda, alimin Azərbaycan kitabxanaşünaslıq elminin inkişafına göstərdiyi mühüm xidmətlər ətraflı şəkildə araşdırılır.*

***Açar sözlər:*** *Professor Xəlil İsmayılov, Azərbaycan kitabxanaşünaslığı, Bakı Dövlət Universiteti, kitabxana işi, Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyası, İFLA.*

## GİRİŞ

Professor Xəlil İsmayılov Azərbaycanda kitabxanaşünaslıq və informasiyaşünaslıq elmlərinin formalaşması, həmçinin inkişafında mühüm xidmətləri olan tanınmış alim, pedaqoq, elm xadimlərindən biridir. Onun elmi və pedaqoji fəaliyyəti uzun illər ərzində ölkədə kitabxana işinin təşkili və idarə olunması, informasiya xidmətlərinin müasir tələblər səviyyəsində qurulması, eləcə də yüksək ixtisaslı kitabxanaçı kadrların hazırlanması istiqamətində mühüm rol oynamışdır. Xəlil İsmayılovun elmi-pedaqoji fəaliyyəti, xüsusilə Bakı Dövlət Universitetində kitabxanaşünaslıq ixtisası

üzrə elmi mühitin formalaşması, yeni tədris-metodiki yanaşmaların tətbiqi və gənc tədqiqatçıların yetişdirilməsi ilə səciyyələnir. Alim nəzəri araşdırmalarla yanaşı, kitabxanaların praktik fəaliyyətində tətbiq oluna bilən elmi-metodiki tövsiyələri ilə də sahənin inkişafına əhəmiyyətli töhfələr vermişdir. Onun elmi baxışlarında kitabxana cəmiyyətin informasiya təminatını həyata keçirən, milli-mədəni irsin qorunması və gələcək nəsillərə ötürülməsində mühüm rol oynayan sosial-mədəni institut kimi qiymətləndirilir. Elmi fəaliyyətini pedaqoji və ictimai fəaliyyəti ilə vəhdətdə həyata keçirən professor Xəlil İsmayılov müasir Azərbaycan kitabxanaşünaslıq məktəbinin görkəmli nümayəndələrindən biri hesab olunur *(Mammadov, 2022)*.

## MÜZAKİRƏ

Xəlil İsmayıl oğlu İsmayılov 1945-ci ildə Azərbaycanın Gədəbəy rayonunun Düzrəsullu kəndində anadan olmuşdur. O, natamam orta təhsilini 1952–1959-cu illərdə doğma kəndində yerləşən yeddiillik ümumtəhsil məktəbində, tam orta təhsilini isə 1959–1963-cü illərdə Çayrəsullu kənd orta məktəbində almışdır. Gənclik illərindən elmə və mütaliəyə böyük maraq göstərən Xəlil İsmayılov sonrakı həyat yolunu da məhz elm və təhsil sahəsi ilə bağlamışdır *(Azərbaycan Milli Kitabxanası, 2015)*.

X.İ.İsmayılov 1964–1966-cı illərdə hərbi xidmətdə olmuşdur. Hərbi xidmətini başa vurduqdan sonra 1967-ci ildə Bakı şəhərinə köçərək əmək fəaliyyətinə başlamış və Yeni Bakı Neft Emalı Zavodunda fəhlə kimi çalışmışdır. Eyni zamanda ali təhsil almağa qərar verərək həmin ildə Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsinə daxil olmuşdur. 1972-ci ildə universiteti müvəffəqiyyətlə bitirərək kitabxanaşünaslıq ixtisası üzrə ali təhsil almışdır. Ali təhsilini başa vurduqdan sonra o, Azərbaycan Lenin Kommunist Gənclər İttifaqının Mərkəzi Komitəsində müxtəlif vəzifələrdə – təlimatçı, baş təlimatçı və təşkilat şöbəsinin müdiri vəzifəsini icra edən şəxs kimi fəaliyyət göstərmişdir. Bu dövrdə qazandığı təşkilati və idarəetmə təcrübəsi onun sonrakı elmi və pedaqoji fəaliyyətində mühüm rol oynamışdır *(Azərbaycan Milli Kitabxanası, 2025)*.

1974-cü ildə Bakı Dövlət Universitetinin Kitabxanaşünaslıq kafedrasına dəvət olunaraq əmək fəaliyyətinə həmin kafedrada laborant vəzifəsində başlamışdır. Qısa müddət ərzində elmi fəaliyyətə böyük maraq göstərmiş və kitabxanaşünaslıq sahəsində elmi tədqiqatlarla məşğul olmuşdur. 1976–1979-cu illərdə həmin kafedranın əyani aspiranturasında təhsil almışdır. Aspirantura illərində apardığı elmi araşdırmalar onun gələcək elmi fəaliyyətinin əsas istiqamətlərini müəyyənləşdirmişdir *(Əliyev, 2025)*.

O, 1979-cu ildən etibarən Bakı Dövlət Universitetinin Kitabxanaşünaslıq kafedrasında müəllim, baş müəllim və dosent vəzifələrində çalışaraq pedaqoji fəaliyyətini davam etdirmişdir. O, tələbələrin peşəkar bilik və bacarıqlarının formalaşmasına xüsusi diqqət yetirmiş, kitabxanaşünaslıq sahəsində müasir yanaşmaların tədris prosesinə tətbiqi istiqamətində ardıcıl fəaliyyət göstərmişdir. 1984-cü ildə Moskva Dövlət Mədəniyyət və İncəsənət Universitetində fəaliyyət göstərən ixtisaslaşdırılmış müdafiə şurasında namizədlik dissertasiyasını uğurla müdafiə etmiş və pedaqoji elmlər namizədi elmi dərəcəsinə layiq görülmüşdür. Bu müdafiə onun kitabxanaşünaslıq sahəsində elmi fəaliyyətinin daha da genişlənməsinə və akademik mühitdə tanınmasına zəmin yaratmışdır. 1990–1993-cü illərdə Bakı Dövlət Universitetinin Kitabxanaşünaslıq kafedrasına rəhbərlik etmişdir. Bu dövrdə kafedranın elmi və tədris fəaliyyətinin inkişafı, yeni tədqiqat istiqamətlərinin formalaşması və elmi-pedaqoji kadr hazırlığının gücləndirilməsi istiqamətində mühüm işlər görülmüşdür. 1993-cü ildən etibarən Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsinin dekanı seçilmiş və 2012-ci ilə qədər bu vəzifədə çalışmışdır. Onun dekanlıq fəaliyyəti dövründə fakültədə tədris prosesinin müasirləşdirilməsi, yeni təhsil proqramlarının hazırlanması, beynəlxalq əlaqələrin genişləndirilməsi və gənc mütəxəssislərin hazırlanması istiqamətində mühüm addımlar atılmışdır *(Azərbaycan Milli Kitabxanası, 2025)*.

Professor Xəlil İsmayılov 1997-ci ildən etibarən "Kitabxanaşünaslıq və biblioqrafiya" elmi-nəzəri və təcrübi jurnalının təsisçisi və baş redaktoru kimi fəaliyyət göstərmişdir. Bu jurnal Azərbaycanda kitabxanaşünaslıq, kitabşünaslıq, biblioqrafiyaşünaslıq və informasiyaşünaslıq elmləri sahəsində aparılan tədqiqatların dərc edilməsi və elmi fikir mübadiləsinin inkişafı baxımından mühüm platforma kimi çıxış edir. 1999-cu ildə Azərbaycanda yaradılmış "Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyası"nın təsisçilərindən biri olmuş və həmin qurumun prezidenti seçilmişdir. Bu təşkilat vasitəsilə ölkədə kitabxana işinin inkişafı, beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi, eləcə də kitabxanaçıların peşəkar fəaliyyətinin dəstəklənməsi istiqamətində geniş fəaliyyət həyata keçirilmişdir *(Əliyev, 2025)*.

X.İ.İsmayılov 2004-cü ildə doktorluq dissertasiyasını müdafiə edərək tarix üzrə elmlər doktoru elmi dərəcəsini almışdır. Onun doktorluq dissertasiyası Azərbaycan kitabxana tarixinin və kitabxana işinin inkişaf mərhələlərinin öyrənilməsi baxımından mühüm elmi əhəmiyyətə malikdir. 2007–2019-cu illərdə Bakı Dövlət Universitetinin Kitabxana resursları və

informasiya axtarış sistemləri kafedrasına rəhbərlik etmişdir. Bu dövrdə kafedrada informasiya texnologiyalarının kitabxana işinə tətbiqi, elektron resursların formalaşdırılması və müasir informasiya axtarış sistemlərinin öyrənilməsi istiqamətində yeni elmi və tədris yanaşmaları tətbiq olunmuşdur *(Azərbaycan Milli Kitabxanası, 2025).*

**Professor Xəlil İsmayılovun Azərbaycan kitabxanaşünaslığının inkişafına verdiyi töhfələr**

Professor Xəlil İsmayılov uzunillik elmi-pedaqoji fəaliyyəti ilə Azərbaycan kitabxanaşünaslıq məktəbinin formalaşması və inkişafında mühüm rol oynamış görkəmli alimlərdən biridir. Onun fəaliyyəti kitabxana işinin müasir tələblər səviyyəsində təşkili və idarə olunması, kitabxana-informasiya xidmətlərinin təkmilləşdirilməsi, həmçinin yüksək ixtisaslı mütəxəssislərin hazırlanması istiqamətində xüsusi əhəmiyyət kəsb edir. Alim öz elmi araşdırmaları, pedaqoji fəaliyyəti və təşkilati təşəbbüsləri ilə ölkədə kitabxanaşünaslıq və informasiyaşünaslıq elmlərinin inkişafına sanballı töhfələr vermişdir *(Mammadov, 2025).* Onun beynəlxalq elmi-peşəkar fəaliyyəti xüsusilə 2000-ci illərin əvvəllərindən etibarən daha da genişlənmişdir. O, dünyanın müxtəlif ölkələrində keçirilən nüfuzlu beynəlxalq konfrans, forum və elmi proqramlarda iştirak edərək Azərbaycan kitabxanaçılıq elminin nailiyyətlərini beynəlxalq elmi ictimaiyyətə təqdim etmişdir. Bu tədbirlərdə iştirakı ona dünya kitabxana təcrübəsi ilə yaxından tanış olmaq, müasir kitabxana idarəçiliyi, informasiya texnologiyalarının tətbiqi və innovativ xidmət modelləri sahəsində qabaqcıl yanaşmaları öyrənmək imkanı yaratmışdır *(Mammadov, 2022).*

2001-ci ilin avqust ayında professor Xəlil İsmayılov Amerika Birləşmiş Ştatlarında – Boston və Nyu-York şəhərlərində keçirilən kitabxana-informasiya müəssisələrinin fəaliyyətinə həsr olunmuş beynəlxalq forumda iştirak etmişdir. Forum çərçivəsində müxtəlif bölmələrin iclaslarında məruzələrlə çıxış edən alim kitabxana işinin təşkili, informasiya xidmətlərinin inkişafı və peşəkar kadr hazırlığı sahəsində əldə etdiyi elmi və praktiki təcrübəni beynəlxalq auditoriya ilə bölüşmüşdür. Həmin ilin 1–10 iyul tarixlərində isə Belçikanın Namür və Brüssel şəhərlərində təşkil olunmuş beynəlxalq proqram çərçivəsində keçirilən konfransda iştirak etmiş, müasir kitabxana idarəçiliyi və informasiya xidmətlərinin təşkili sahəsində tətbiq olunan yeni metod və yanaşmalarla yaxından tanış olmuşdur *(Azərbaycan Milli Kitabxanası, 2015).*

2003-cü il 18 may – 1 iyun tarixlərində Fransanın Nitsa şəhərində və Monteneqroda keçirilən beynəlxalq proqramlarda iştirak edən professor Xəlil İsmayılov kitabxana-informasiya sahəsində yeni texnologiyaların

tətbiqi və idarə olunması üzrə ixtisasartırma proqramına qatılmışdır. Bu səfər çərçivəsində o, kitabxana sistemlərində müasir informasiya texnologiyalarının tətbiqi, elektron resursların yaradılması və idarə olunması sahəsində qabaqcıl beynəlxalq təcrübə ilə tanış olmuşdur *(Azərbaycan Milli Kitabxanası, 2025)*.

2005-ci ilin 13–18 avqust tarixlərində Norveçin paytaxtı Oslo şəhərində keçirilən Beynəlxalq Kitabxana Assosiasiyaları Federasiyasının (IFLA) illik konfransında iştirak edən professor Xəlil İsmayılov konfransın bölmə iclaslarında elmi məruzələrlə çıxış etmişdir. O, çıxışlarında Azərbaycanda kitabxana işinin inkişaf mərhələləri, kitabxana idarəçiliyinin müasir problemləri və informasiya xidmətlərinin təşkili məsələləri haqqında məlumat verərək ölkəmizin kitabxana-informasiya fəaliyyəti sahəsində əldə etdiyi nailiyyətləri beynəlxalq müstəvidə təqdim etmişdir *(Azərbaycan Milli Kitabxanası, 2015)*.

2006-cı ilin 18–25 avqust tarixlərində Cənubi Koreyanın paytaxtı Seul şəhərində keçirilən IFLA-nın növbəti beynəlxalq konfransında da fəal iştirak edən alim burada kitabxanaların informasiya cəmiyyətində rolu, innovativ xidmət modelləri və kitabxanaçı kadrların peşəkar hazırlığı məsələlərinə dair elmi məruzələrlə çıxış etmişdir. Bu konfranslar professor Xəlil İsmayılovun beynəlxalq elmi əlaqələrinin genişlənməsinə və Azərbaycan kitabxanaşünaslıq elminin dünya elmi məkanında tanıdılmasına mühüm töhfə vermişdir *(Azərbaycan Milli Kitabxanası, 2025)*.

Görkəmli alim professor Xəlil İsmayılovun elmi yaradıcılığı olduqca zəngin və çoxşaxəlidir. O, uzun illər ərzində kitabxana-informasiya fəaliyyəti sahəsində fundamental və praktik əhəmiyyətə malik çoxsaylı elmi və tədris nəşrlərinin müəllifi və həmmüəllifi olmuşdur. Alimin əsərlərində kitabxana işinin təşkili və idarə olunması, kitabxana menecmenti, metodik təminat sistemi, informasiya texnologiyalarının kitabxana fəaliyyətinə tətbiqi kimi mühüm məsələlər geniş şəkildə tədqiq edilmişdir.

Professor Xəlil İsmayılovun əsas elmi və tədris nəşrləri sırasında "Kitabxanaçılıq fakültəsi (BDU-nun 75 illiyinə həsr olunub)" *(İsmayılov, 1994b)*, "Kitabxana işinin idarə edilməsinin metodiki və təşkilati məsələləri" *(İsmayılov, 1995)*, "Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi (1918–2000-ci illər)" *(İsmayılov, 2000)*, "Kitabxana menecmentinin əsasları" *(İsmayılov, 2007)*, "Kitabxana-informasiya texnologiyaları" *(İsmayılov, 2009)*, "Kitabxana işinin təşkili və idarə edilməsi" *(İsmayılov, 2010)* kimi əsərləri mühüm yer tutur.

Bununla yanaşı, professor Xəlil İsmayılov S.Mustafayeva ilə birgə,

həmmüəllif olaraq “Sənədlərin biblioqrafik təsviri” *(İsmayılov & Mustafayeva, 2017)* və “Sənədlərin biblioqrafik təsnifləşdirilməsi” *(İsmayılov & Mustafayeva, 2018)* adlı dərsliklərin hazırlanmasında iştirak etmişdir. Bu dərsliklər kitabxana-informasiya fəaliyyəti sahəsində çalışan mütəxəssislər, bu sahə üzrə təhsil alan tələbələr üçün mühüm əhəmiyyət kəsb edir.

Professor Xəlil İsmayılovun elmi irsi yalnız dərslik və monoqrafiyalarla məhdudlaşmır. O, 100-dən çox elmi məqalə, metodik göstəriş, tədris proqramı və konfrans materialının müəllifidir. Alimin hazırladığı metodik və tədris nəşrləri sırasında “Kitabxana işinin təşkili, iqtisadiyyatı və idarə edilməsi: tədris proqramı” *(İsmayılov, 1994a)*, “Kitabxanaların elmi-metodik təminatı: tədris proqramı” *(İsmayılov, 2000)*, “Kitabxanaların elmi-metodik təminatı: Metodik göstəriş*” (İsmayılov, 2002)* və digər vəsaitlər xüsusi yer tutur.

Alimin elmi irsi və pedaqoji fəaliyyəti göstərir ki, o, kitabxananı yalnız informasiya mərkəzi kimi deyil, həm də milli yaddaşı qoruyan, xalqın mənəvi və mədəni dəyərlərini gələcək nəsillərə ötürən strateji, sosial-mədəni institut kimi dəyərləndirən alimlər nəslinin görkəmli nümayəndələrindən biridir. Onun elmi baxışlarında kitabxana cəmiyyətin intellektual inkişafına, maariflənməsinə və mədəni tərəqqisinə xidmət edən mühüm ictimai təsisat kimi təqdim olunur. Professor Xəlil İsmayılovun elmi məktəbi, pedaqoji nümunəsi və ictimai mövqeyi müasir Azərbaycan kitabxanaşünaslığının formalaşmasında mühüm ideya və təcrübə bazası yaratmışdır.

Beləliklə, professor Xəlil İsmayılovun elmi fəaliyyəti Azərbaycan kitabxanaşünaslıq elminin inkişafında mühüm mərhələ təşkil edir. Onun əsərləri və pedaqoji fəaliyyəti kitabxana işinin nəzəri və praktik əsaslarının formalaşmasına, müasir informasiya cəmiyyətinin tələblərinə uyğun kitabxana xidmətlərinin inkişafına və yeni nəsil kitabxana-informasiya mütəxəssislərinin yetişdirilməsinə mühüm təsir göstərmişdir.

Professor Xəlil İsmayılov Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə 2020-ci ildən etibarən AMEA-nın Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində yaradılmış 3356.01 – “Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq” ixtisası üzrə Elmi Seminarın sədri olmuşdur. Onun elmi rəhbərliyi ilə 12 nəfər fəlsəfə doktoru və 1 nəfər elmlər doktoru dissertasiyası müdafiə etmişdir *(Əliyev, 2025)*.

Xəlil İsmayılovun fəaliyyəti, xüsusilə Bakı Dövlət Universitetində formalaşdırdığı elmi-pedaqoji mühit və yetişdirdiyi gənc tədqiqatçılar vasitəsilə kitabxanaşünaslıq sahəsinin davamlı inkişafına xidmət etmişdir.

Onun rəhbərliyi ilə hazırlanmış elmi kadrlar bu gün ölkənin müxtəlif elmi və təhsil müəssisələrində fəaliyyət göstərərək Azərbaycanda kitabxana-informasiya fəaliyyəti sahəsinin inkişafına öz töhfələrini verməkdədirlər. Bu baxımdan professor Xəlil İsmayılovun elmi məktəbi milli kitabxanaşünaslıq elminin formalaşmasında və inkişafında mühüm rol oynamışdır.

Alimin elmi fəaliyyəti beynəlxalq elmi ictimaiyyət tərəfindən də yüksək qiymətləndirilmişdir. O, BMT yanında fəaliyyət göstərən Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü (2014) seçilmişdir. Bundan əlavə, təcrübəli mütəxəssis kimi, o, Azərbaycan Respublikasında "Kitabxana işi haqqında" Qanunun hazırlanması üzrə yaradılmış (1998) işçi qrupunun üzvü olmuş, ölkənin kitabxana siyasətinin formalaşmasına və qanunvericilik bazasının təkmilləşdirilməsinə mühüm töhfələr vermişdir.

Professor Xəlil İsmayılovun elmi dünyagörüşündə kitabxana yalnız informasiya mərkəzi kimi deyil, həm də milli yaddaşı qoruyan, xalqın mənəvi dəyərlərini gələcək nəsillərə ötürən və zamanın tələblərinə uyğun şəkildə daim yenilənən mühüm mədəniyyət məkanı kimi qiymətləndirilir. Bu baxımdan alim kitabxana fəaliyyətinin inkişafını yalnız texnoloji yeniliklərlə deyil, həm də milli-mədəni irsin qorunması və cəmiyyətin maariflənməsi ilə sıx əlaqədə dəyərləndirir.

## NƏTİCƏ

Aparılan ümumi təhlil göstərir ki, professor Xəlil İsmayılovun çoxillik elmi-pedaqoji fəaliyyəti Azərbaycan kitabxanaşünaslıq elminin inkişafında mühüm mərhələ təşkil edir. Onun araşdırmaları kitabxana işinin təşkili və idarə olunması, informasiya xidmətlərinin modernləşdirilməsi, metodiki təminatın gücləndirilməsi və peşəkar kadr hazırlığının təkmilləşdirilməsi baxımından nəzəri-praktik əhəmiyyətə malikdir. Alimin irəli sürdüyü elmi yanaşmalar və metodiki tövsiyələri ölkədə kitabxana fəaliyyətinin müasir tələblərə uyğun şəkildə inkişafına, kitabxana-informasiya xidmətlərinin səmərəliliyinin artırılmasına və bu sahədə elmi tədqiqatların genişlənməsinə mühüm təsir göstərmişdir. Xəlil İsmayılovun elmi irsi və müəllimlik fəaliyyəti göstərir ki, o, kitabxananı yalnız informasiya mərkəzi deyil, milli yaddaşı və mənəvi dəyərləri yaşadan strateji, mədəni institut kimi dəyərləndirən alimlər nəslinin parlaq nümayəndəsidir. Professor Xəlil İsmayılovun elmi məktəbi, pedaqoji nümunəsi və ictimai mövqeyi müasir Azərbaycanda kitabxana-informasiya fəaliyyəti sahəsinin formalaşmasında mühüm ideya və təcrübə bazası yaradaraq, gələcək nəsil mütəxəssislər üçün etibarlı elmi və mənəvi istiqamət rolunu oynayır.

Kitabxanaşünas alim, professor Xəlil İsmayılov şəxsiyyətini

səciyyələndirən mühüm xüsusiyyətlərdən biri də onun təhsil mühitindən, tələbə auditoriyasından və bütövlükdə cəmiyyətin real problemlərindən heç vaxt uzaqlaşmamasıdır. O, özünü yalnız elmi kabinetlə məhdudlaşdıran tədqiqatçı obrazından fərqli olaraq, daim insanlarla ünsiyyətdə olan, gənclərin düşüncəsini, ehtiyaclarını və dünyagörüşünü yaxından izləyən, onların suallarına səbr və diqqətlə yanaşan bir pedaqoq kimi tanınır.

Professor Xəlil İsmayılov üçün müəllimlik sadəcə bilik ötürmək deyil, eyni zamanda qarşılıqlı anlaşma, etimad və dialoq üzərində qurulan canlı bir ünsiyyət prosesidir. Onun elmə və insana münasibətində əsas fərqləndirici cəhətlərindən biri səmimilik və xeyirxahlıqdır. Professor öz zəngin bilik və uzunillik təcrübəsini bölüşərkən heç vaxt üstün mövqedən çıxış etmir, qarşısındakı insanın fikrinə və mövqeyinə dəyər verir, auditoriyanın intellektual potensialına hörmətlə yanaşır. Məhz bu yanaşma Xəlil İsmayılovu tələbələr və həmkarları üçün əlçatan, ünsiyyətə açıq və etibarlı elm adamına çevirir. Onun dərs və müzakirələrdə yaratdığı demokratik mühit gənclərin sərbəst düşünməsinə, fikirlərini çəkinmədən ifadə etməsinə və elmi axtarışlara daha böyük maraq göstərməsinə şərait yaradır. Bu baxımdan professor Xəlil İsmayılovun elmi irsi Azərbaycan kitabxanaşünaslıq elminin gələcək inkişafı üçün mühüm elmi və mənəvi töhfə kimi dəyərləndirilə bilər.

## ƏDƏBİYYAT

Azərbaycan Milli Kitabxanası. (2015). *Azərbaycan Kitabxana Ensiklopediyası.* http://web2.anl.az:81/read/page.php?bibid=482293&pno=1

Azərbaycan Milli Kitabxanası. (2025). *Virtual sərgi: Görkəmli kitabxanaşünas alim, professor Xəlil İsmayılov*. https://anl.az/el/vsb/Xelil_Ismayilov/index.html

Əliyev, İ. (2025, iyul 1). Mənəvi xəzinəmizin xiridarı: Xəlil İsmayılov – 80. *Xalq qəzeti*, (131), 12.

İsmayılov, X. İ. (1995). *Kitabxana işinin idarə edilməsinin metodiki və təşkilati məsələləri*. M.F.Axundov adına Azərbaycan Respublika Dövlət Kitabxanası.

İsmayılov, X. (2000). *Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi (1918–2000-ci illər)* [History of the development of the methodological support system for librarianship in

the Republic of Azerbaijan (1918–2000)]. http://web2.anl.az:81/read/page.php?bibid=vtls000015058

İsmayılov, X. İ. (2007). *Kitabxana menecmentinin əsasları.* Bakı Universiteti.

İsmayılov, X. İ. (1994a). *Kitabxana işinin təşkili, iqtisadiyyatı və idarə edilməsi*: tədris proqramı. Bakı Universiteti.

İsmayılov, X. İ. (1994b). *Kitabxanaçılıq fakültəsi* (BDU-nun 75 illiyinə həsr olunub). Bakı Universiteti.

İsmayılov, X. İ. (2000). *Kitabxanaların elmi-metodik təminatı*: tədris proqramı. Bakı Universiteti.

İsmayılov, X. İ. (2002). *Kitabxanaların elmi-metodik təminatı*: Metodik göstəriş. Bakı Universiteti.

İsmayılov, X. (2009). *Kitabxana-informasiya texnologiyaları:* Dərs vəsaiti [Library and information technologies: Teaching aid]. http://web2.anl.az:81/read/page.php?bibid=vtls000115643

İsmayılov, X. (2010). *Kitabxana işinin təşkili və idarə edilməsi:* Dərslik [Organization and management of librarianship: Textbook]. http://web2.anl.az:81/read/page.php?bibid=vtls000134468

İsmayılov, X., & Mustafayeva, S. (2017). Sənədlərin biblioqrafik təsviri: dərslik [Bibliographic description of documents: Textbook]. Mütərcim.

İsmayılov, X., & Mustafayeva, S. (2018). Sənədlərin biblioqrafik təsnifləşdirilməsi: dərslik. Bakı Universiteti.

Mammadov, E. (2025). Bilgi Bilimi: Temel, Genelleştirilmiş Bir Bilim Olarak [Information Science: As a fundamental, generalized science]. Education and Technology in Information Science, 3(2), 20-26. https://doi.org/10.5281/zenodo.18262086

Mammadov, E. E. (2022). *History of books and libraries in Azerbaijan.* Teaching aid for universities. Adiloglu. https://doi.org/10.5281/zenodo.15557293

**Shafag İsrafil gizi Islamova**
*Head of the library of the Institute of Economics*
*of the Ministry of Science and Education of the*
*Republic of Azerbaijan, Doctor of Historical Sciences*
***E-mail:*** shafaq.ace@gmail.com
*https://orcid.org/0009-0004-0546-3220*

## THE SCIENTIFIC HERITAGE OF PROFESSOR KHALIL ISMAYILOV: CONTRIBUTIONS TO LIBRARY SCIENCE IN AZERBAIJAN

***Abstract:*** *The article analyzes the international scientific and professional innovative activities of professor Khalil Ismayil oglu Ismayilov, with a particular focus on his contributions to the development of library science in Azerbaijan. Special emphasis is placed on his presentations at conferences held under the auspices of the Azerbaijan Association of Development of Library and the International Federation of Library Associations and Institutions (IFLA), as well as his significant role in integrating advanced international best practices into the country's library system. Additionally, the article provides a detailed examination of the scholar's important services to the advancement of Azerbaijani library science.*
***Keywords:*** *Professor Khalil Ismayilov, Azerbaijani Library Science, Baku State University, librarianship, Azerbaijan Library Development Association, IFLA.*

**Шафаг Исрафил кызы Исламова**
*Заведующий библиотекой Института экономики*
*Министерства науки и образования*
*Азербайджанской Республики, д-р филос. по ист. наук*
***Электронная почта:*** shafaq.ace@gmail.com
*https://orcid.org/0009-0004-0546-3220*

## НАУЧНОЕ НАСЛЕДИЕ ПРОФЕССОРА ХАЛИЛА ИСМАИЛОВА: ВКЛАД В БИБЛИОТЕКОВЕДЕНИЕ АЗЕРБАЙДЖАНА

***Резюме:*** *В статье анализируется международная научная и профессионально-инновационная деятельность профессора Халила*

*Исмаил оглы Исмаилова, с особым вниманием к его вкладу в развитие библиотековедения Азербайджана. Особо подчеркиваются его выступления на конференциях в рамках Ассоциации Развития Библиотечного дела в Азербайджане и Международной федерации библиотечных ассоциаций и учреждений (IFLA), а также значительная роль ученого в интеграции передового международного опыта в библиотечную систему страны. Кроме того, в статье подробно исследуются важные заслуги ученого в развитии Азербайджанского библиотековедения.*

***Ключевые слова:*** *Профессор Халил Исмаилов, Азербайджанское библиотековедение, Бакинский государственный университет, библиотечное дело, Ассоциации Развития Библиотечного дела в Азербайджане, ИФЛА.*

**Məqalə tarixçəsi:** redaksiyaya daxil olub – 09.09.2025; çapa qəbul edilib – 04.10.2025.



**KİTABXANA İŞİNİN TARİXİ**
HISTORY OF LIBRARIANSHIP
***ИСТОРИЯ БИБЛИОТЕЧНОГО ДЕЛА***

====================================================

**UOT/UDC/УДК *02(091)(479.24)*** DOI 10.5281/zenodo.19635823

**Eldaniz Elman oglu Mammadov**
*Senior lecturer at the Department of Library Science,*
*Faculty of Information and document management,*
*Baku State University, PhD in History*
***E-mail:*** mammadoveldaniz@gmail.com
*https://orcid.org/0000-0002-7028-8332*

# PROFESSOR KHALIL ISMAYILOV: LEADING AZERBAIJANI LIBRARY SCHOLAR TURNS 80

***Abstract:*** *The article analyzes the life path, scientific-pedagogical activities, and the pivotal role of Khalil Ismayil oglu Ismayilov - Honored Worker of Culture of the Republic of Azerbaijan, Doctor of Historical Sciences, Professor - in the development of library science in Azerbaijan. Prepared on the occasion of his 80th anniversary (July 1, 2025) and the 51st year of his professional career, this study pays special attention to the scholar's contributions to library education in Azerbaijan, library management, and the implementation of information technologies in library administration. Particular emphasis is placed on the analysis of four major scientific publications by the scholar that have played a significant role in the formation of highly qualified and experienced professionals. In addition to highlighting Professor Ismayilov's scientific legacy, the article underscores his humanistic approach to his profession, work, and colleagues, his sincere attitude, and his profound dedication to the library community.*

***Keywords:*** *Azerbaijani library science, professor Khalil Ismayilov, Baku State University, library science, librarianship, library management.*

## INTRODUCTION

Library and information science in Azerbaijan has undergone substantial development over the past half-century, evolving from a largely auxiliary discipline under centralized Soviet planning to an independent,

internationally oriented field in the post-independence era. A key figure in this evolution is professor Khalil Ismayil oglu Ismayilov (born July 1, 1945, in Düzrəsullu village, Gadabay district) *(Azərbaycan Milli Kitabxanası, 2015).*

Ismayilov graduated from Baku State University's Faculty of Library Science in 1972. He began his career in 1974 as a laboratory assistant in the Department of Library Science at the same university. Following postgraduate studies (1976–1979), he advanced through lecturer, senior lecturer, and associate professor positions. In 1984, he defended his Candidate of Sciences dissertation at the Moscow State University of Culture and Arts. In 2004, he earned the degree of Doctor of Historical Sciences with a dissertation on the historical development of methodological support systems in Azerbaijani libraries (1918–2000) *(Xələfov, 2011).*

In recognition of his contributions to education and science, he was awarded the honorary title "Honored Worker of Culture" by Presidential decree in 2009 *(Xələfov, 2011).*

Professor Ismayilov has presented at international conferences in the United States, France, Belgium, and Norway, and is the author of over 150 scientific works, including monographs, textbooks, manuals, and articles. Beyond these achievements, colleagues and students consistently describe him as a mentor of exceptional warmth, integrity, generosity, and intellectual openness. He approaches his profession with deep passion, views his academic collective as a family, and inspires enthusiasm through patient guidance and genuine care for younger specialists *(Azərbaycan Milli Kitabxanası, 2015)*.

This article discusses his major scholarly contributions, with detailed consideration of four seminal works, and reflects on his enduring legacy.

## DISCUSSION

Professor Ismayilov's career and leadership have been instrumental in this evolution, particularly through his scholarly works and institutional contributions.

His administrative leadership included serving as Head of the Department of Library Science (1990–1993), Dean of the Faculty of Library Science (renamed Faculty of Information and Document Management) from 1993 to 2012, and Head of the Department of Library Resources and Information Retrieval Systems (2007–2019). Since 1997, he has founded and served as editor-in-chief of the journal Kitabxanaşünaslıq və biblioqrafiya (Library Science and Bibliography). In 1999, he co-founded

and became president of the Azerbaijan Library Development Association *(Azərbaycan Milli Kitabxanası, 2015).*

The Azerbaijan Association of Development of Library (Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyası, abbreviated as AKİİA) stands as one of the most influential and representative non-governmental organizations in the field of library and information science in Azerbaijan.

Founded in 1999, the Association emerged during a critical transitional period when Azerbaijani librarianship faced the urgent challenges of adapting to new socio-economic realities, integrating into global information processes, and modernizing library services after the collapse of the centralized Soviet library system. Under the leadership of its founder and long-standing president, professor Khalil Ismayil oglu Ismayilov - a prominent scholar, Doctor of Historical Sciences, and Head of the Department of Library Resources and Information Retrieval Systems at Baku State University - Azerbaijan Association of Development of Library has played a pivotal role in uniting library professionals and institutions to advance the profession on both national and international levels *(Mammadov, 2022).*

From its inception, the Association has united 13 major institutional members (including leading national, university, and public libraries) and more than 300 individual members, making it the largest and most active professional body in the country in terms of scope and membership. Its core mission focuses on the comprehensive development of library services in line with contemporary demands: promoting modernization, introducing new technologies, enhancing professional training, elevating the social status of librarianship, and fostering cooperation among libraries *(Xələfov, 2011).*

One of the most significant achievements under professor Ismayilov's presidency was the Association's successful admission as a full member of the International Federation of Library Associations and Institutions (IFLA) in 2000 - just one year after its establishment. This milestone granted Azerbaijan Association of Development of Library voting rights in IFLA's governing bodies (with 8 votes), enabling Azerbaijan to actively participate in global library policy discussions and represent national interests on the international stage. Professor Ismayilov has personally represented the Association at numerous IFLA sessions and international forums in countries such as the USA (Boston), France (Nice, Lyon, Cannes), Belgium (Brussels, Namur), Norway (Oslo), and South Korea (Seoul), delivering papers and strengthening Azerbaijan's visibility in the global library

community *(Azərbaycan Milli Kitabxanası, 2015).*

Over more than two decades, Azerbaijan Association of Development of Library has organized and supported a wide range of activities aimed at professional development.

The association has consistently advocated for the establishment of modern information infrastructure, including the long-desired centralized national library-information resource center, and has shared its accumulated experience with state institutions to support the broader digitization and modernization of Azerbaijan's library network.

Professor Ismayilov's scholarly output bridges historical analysis, theoretical foundations, and practical application, addressing the specific needs of Azerbaijani librarianship during periods of political, economic, and technological change.

His 2000 monograph, Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi (1918–2000-ci illər) (The History of the Development of the Methodical Support System for Librarianship in the Republic of Azerbaijan, 1918–2000), represents the published form of his doctoral dissertation. This comprehensive 445-page study provides the first systematic chronological examination of methodological guidance in Azerbaijani libraries across more than eight decades. It defines methodical support as the integrated system of normative documents, instructional materials, consultative services, and professional training that ensures standardized, effective library operations *(İsmayılov, 2000).*

The work traces key periods: the nascent efforts during the Azerbaijan Democratic Republic (1918–1920); the highly centralized, ideologically constrained Soviet era (1920–1991), including the establishment of republican methodological cabinets, standardized forms, and the influence of All-Union structures; post-World War II recovery; reforms of the 1950s–1980s; and the post-1991 transition marked by institutional collapse followed by revival through the 1998 Law on Libraries, new independent centers, and initial international alignment. Supported by archival documents, statistical data, and comparative analysis, the monograph concludes with forward-looking recommendations on regional services, digital resources, and IFLA/UNESCO standards. It remains a foundational historical and programmatic text for restructuring methodological work in independent Azerbaijan *(Mammadov, 2022).*

In 2005, professor Ismayilov published Kitabxana menecmentinin əsasları (Fundamentals of Library Management), the first Azerbaijani-language textbook on the subject (319 pages). Appearing during the shift

from command-administrative to market-oriented approaches, it introduces universal management theories tailored to library contexts. After defining library management as purposeful influence on personnel, resources, and processes to fulfill the institution's mission, the text covers historical schools of management, core functions (planning, organizing, leading, controlling), human resource and financial management, marketing of services, quality assurance, crisis and innovation management, and time management. Enriched with Azerbaijani examples, test questions, and references, the book has become the standard text for the "Library Management" course and supported the professional reorientation of library leaders in the transition period *(İsmayılov, 2005).*

Yeni Fikir. (2025). *Yeni Fikir Startup Yarışması*. https://yenifikir.az/musabiqe/

**Mahir Hamza oglu Zeynalov**
*Leading Researcher of the Institute of Economics of the Ministry of Science and Education of the Republic of Azerbaijan,*
*Doctor of Philosophy, Associate Professor*
***E-mail:*** zeynalli75@mail.ru
*https://orcid.org/0000-0002-3518-1812*

## INNOVATIVE APPROACHES TO ENTREPRENEURSHIP DEVELOPMENT IN AZERBAIJAN AND THEIR IMPACT ON COMPETITIVENESS

***Abstract:*** *The article examines the role of innovative approaches in the development of entrepreneurship in Azerbaijan, their impact on competitiveness, their application in the local market, and development prospects through state support mechanisms. It also analyzes the effects of innovative approaches on productivity, competitiveness, and market position, and evaluates the challenges, risks, and future prospects encountered. Furthermore, the article interprets the significant role of innovation policy and modern technological solutions in ensuring the sustainable development of entrepreneurship in the country.*
***Keywords:*** *Azerbaijani economy, state support, innovative approaches, economic development, competitiveness, digital transformation, entrepreneurship, startup.*

**Махир Хамза оглы Зейналов**
*Ведущий научный сотрудник Института экономики Министерства науки и образования Азербайджанской Республики,*
*доктор философии, доцент*
***Электронная почта:*** zeynalli75@mail.ru
*https://orcid.org/0000-0002-3518-1812*

## ИННОВАЦИОННЫЕ ПОДХОДЫ К РАЗВИТИЮ ПРЕДПРИНИМАТЕЛЬСТВА В АЗЕРБАЙДЖАНЕ И ИХ ВЛИЯНИЕ НА КОНКУРЕНТОСПОСОБНОСТЬ

***Резюме:*** *В статье исследуется роль инновационных подходов в развитии предпринимательства в Азербайджане, их влияние на*

*конкурентоспособность, применение на внутреннем рынке, а также перспективы развития посредством государственной поддержки. Также анализируется влияние инновационных подходов на производительность, конкурентоспособность и рыночные позиции, оцениваются возникающие проблемы, риски и перспективы дальнейшего развития. Кроме того, раскрывается важная роль инновационной политики и современных технологических решений в обеспечении устойчивого развития предпринимательства в стране.*

***Ключевые слова:*** *Азербайджанская экономика, государственная поддержка, инновационные подходы, экономическое развитие, конкурентоспособность, цифровая трансформация, предпринимательство, стартап.*

**Məqalə tarixçəsi:** redaksiyaya daxil olub – 10.09.2025; çapa qəbul edilib – 10.10.2025.



**HUMANİTAR VƏ SOSİAL ELMLƏR TARİXİ**
**İqtisad elmləri**
HISTORY OF HUMANITIES AND SOCIAL SCIENCES
Economic sciences
***ИСТОРИЯ ГУМАНИТАРНЫХ И СОЦИАЛЬНЫХ НАУК***
***Экономические науки***

====================================================

**UOT/UDC/УДК** ***338.48:39(479.24)***

DOI 10.5281/zenodo.19636727

**İlahə Azər qızı Ağazadə**
*AMEA-nın Mərkəzi Elmi Kitabxanasının əməkdaşı*
***E-mail:*** ilahe.agazade.00@mail.ru
*https://orcid.org/0000-0002-4347-1211*

# ÇAY MƏDƏNİYYƏTİ VƏ ONUN AZƏRBAYCAN TURİZMİNDƏKİ YERİ

***Xülasə:*** *2019-cu ildən etibarən, hər il may ayının 21-də Birləşmiş Millətlər Təşkilatına üzv ölkələr Yer kürəsinin ən qədim və sağlam içkilərindən biri olan çayın bayramını – "Beynəlxalq Çay Günü"nü qeyd edirlər. Dünya xalqlarının milli çay və çayiçmə ənənələri haqqında çoxsaylı materiallar və nəşrlər mövcuddur. Çayın istifadəsinə dair ilk məlumatlar eramızdan əvvəlki dövrlərə (e.ə. III əsr, Çin) təsadüf edir. XVI əsrdə Portuqaliya tacirləri çayı Avropaya gətirməyə başlamış və çay tezliklə aristokratik dairələrdə, eləcə də kral saraylarında dəb halına gəlmişdir. XIX əsrdə Qərb ölkələri ilə Çin arasında çay ticarəti geniş vüsət almış, nəticədə Avropa və Amerikada çay sənayesi formalaşmağa başlamışdır.*

*Doğma yurdumuz Azərbaycanın da özünəməxsus çay mədəniyyəti, çayiçmə mərasimləri və ənənələri mövcuddur. Bu mədəniyyətin zəngin imkanlarından turizmin müxtəlif növlərində (etnoqrafik, qastronomik və s.) istifadə etməklə onu təbliğ etmək Azərbaycanın milli dəyərlərini və varlığını dünyaya tanıtmaq baxımından vacib vəzifədir. Çünki Azərbaycan çay mədəniyyətinin humanist, xeyirxah və qonaqpərvər missiyası vardır.*

***Açar sözlər:*** *Azərbaycan turizmi, çay mədəniyyəti, etnoqrafik turizm, qastronomik turizm, qonaqpərvərlik.*

## GİRİŞ

Bəşəriyyətin çay içməyə nə vaxt və necə başladığı dəqiq məlum deyil. Çayın dərman vasitəsi olaraq, içki kimi, istifadəsinə dair ilk məlumatlar, e.ə. III əsrə, Çinə aiddir. Avropalılar Asiya uzunömürlülüyünü çay içməklə əlaqələndirərək bu içki haqqında geniş məlumatlar toplamış, XVI əsrdən isə tacirlər çayı ölkəyə gətirməyə başlamışlar. XIX əsrdən etibarən Çin ilə çay ticarətini genişləndirmiş Avropa və Amerikada çay sənayesi formalaşmağa başlanmışdır *(Lenkeran State University, 2022)*.

Azərbaycanın çay mədəniyyəti qədim köklərə söykənən, daim yenilənən canlı bir ənənədir. Bu mədəniyyət sadəcə içki içmək deyil, qonaqpərvərliyin, sosial əlaqələrin və milli kimliyin ən parlaq ifadəsidir. Azərbaycanın təşəbbüsü ilə çay mədəniyyətinin 2022-ci ildə UNESCO-nun "Qeyri-maddi mədəni irs siyahısı"na daxil edilməsi onun beynəlxalq əhəmiyyətini bir daha təsdiqlədi *(UNESCO, 2022)*.

Tarixən çay Azərbaycana "Böyük ipək yolu" vasitəsilə gəlib, lakin yerli çay istehsalı (çay bitkisinin əkilməsi və becərilməsi) XIX əsrin sonlarında Lənkəran və Astara rayonlarında başlayıb *(Maharramov et al., 2020)*.

Azərbaycanlının evində çay süfrəsi qonağın qarşılandığı ilk və ən vacib mərasimdir. Qonaq evdən bir stəkan çay içmədən buraxılmır – bu, hörmət və isti münasibətin əlamətidir.

Azərbaycanın çay mədəniyyəti nəsillər arası körpüdür. Çay sadəcə içki deyil – həyatın ritmidir, söhbətin açarı və dostluğun rəmzidir. Bu mədəniyyət min illərin sınağından çıxıb və gələcəyə də əmin addımla gedir.

## MÜZAKİRƏ

### *Dünya xalqlarının milli çay və çayiçmə ənənələri*

Bu gün dünyada hər gün təqribən 1,5 milyard stəkandan çox müxtəlif növ çay içilir. Çay əkinçiliyi, istehsalı, onun hazırlanması və çay xidmətinin təşkil edilməsi çox yüksək sənətkarlıq tələb edən ciddi proseslərdir. Bu məsələlərə dair dünya xalqlarının özünəməxsus ənənələri mövcuddur.

Hazırda dünyada çayxanalara oxşar restoranlara tez-tez rast gəlmək olar. Çayın gətirdiyi rahatlıq, təsirinin orijinallığı sülhü və əmin-amanlığı sevən insanları bu məkanlara daha çox cəlb edir. Birlikdə çay içmək təklifi dostluq jestidir.

Çay içmək ənənəsi əsl ritual xarakterini məhz Yaponiyada alıb. Yaponiyada çay içmək ritualının (mərasiminin) banisi Murata Juko (1423–1502) hesab edilir. Juko monastrda rahib idi. Və intensiv şəkildə meditasiya ilə məşğul olurdu. Meditasiyaya olan həddindən artıq həvəsi onda əsəb yorğunluğunu formalaşdırmışdı. Yerli bir təbibin məsləhəti ilə Juko dərman

vasitəsi kimi çay qəbul etdi. Və bu onun çaya olan marağını artırdı. Çay haqqında yazılmış əsərləri və o dövrdə məlum olan çay içmə formalarını araşdıran Juko sonda öz çay ritualını yaratdı. O, çay içmək üçün xüsusi çay qablarından istifadə etməyi təklif edirdi, çünki bundan əvvəl çay içmək üçün yaponlar Çin qablarından istifadə edirdilər *(Kumakura, 2023)*.

Min sülaləsi dövründə (XIV–XVII əsrlər) Çində çay içmək əhali arasında daha da geniş yayılmış və ictimai həyatın adi elementinə çevrilmişdir; bu proses xüsusilə yaşıl çay növlərinə aid idi. Bununla belə, çay içmək üçün mərasimlərin təşkili, onun incə mədəniyyəti əsasən ədiblər və aristokrat təbəqələr arasında formalaşmışdır. Bu mədəniyyətin xüsusiyyətləri nəfis çay pavilyonlarında, evlərdə, onları əhatə edən bağlarda, qohumların və qonaqların əhatəsində içkidən həzz almaq atmosferi yaradan atributlarda öz əksini tapırdı *(Fuquan, 2004)*.

Türkiyə-Azərbaycan mədəniyyətinin də bir parçası olan çay ictimai təcrübədir, qonaqpərvərlik və dostluq əlamətidir. Çayın hazırlanması və istehlakı türkdilli xalqların mədəniyyətinin və gündəlik həyatının ayrılmaz hissəsidir.

Türkiyə həmişə türk qəhvəsi və qara çayı ilə məşhur olmuşdur. Çay türklərin ən sevimli içkisidir. Qapalı Çarşıda səhər yeməyini, ictimai toplantıları, iş görüşlərini, hətta xalça bazarlığını bir fincan çay təklif edilmədən təsəvvür etmək mümkün deyil. Türklərin gündəlik istehlakı onların hətta ingilisləri də üstələməsinə şərait yaradır *(Ansel, 2023)*.

Türkiyənin yüzillik ənənəyə əsaslanan unikal çay mədəniyyəti vardır. İstehsal olunan çayın böyük hissəsi ölkə daxilində istehlak olunur. Türkiyə çay istehsalında dünyada altıncı yerdədir. Türkiyənin Şərqi Qara dəniz sahilindəki çay plantasiyaları Gürcüstan Respublikasının sərhədindən Türkiyənin "çay paytaxtı" olan Rizəyə və daha qərbdə Trabzona doğru uzanır *(Lenkeran State University, 2022)*.

Çay Türkiyənin ictimai həyatının əsasını təşkil edir və ölkənin daxili iqtisadiyyatında böyük rol oynayır. Çayı günün istənilən vaxtında, istənilən yerdə içmək olar. Türkiyədə gəmilərlə səfərləri çaysız təsəvvür etmək çətindir. Türkiyənin istənilən şəhərinə səyahət edənlər çay evi və ya çay bağçası kimi sosial mərkəzlər tapa biləcəklər. Böyük şəhərlərdə və turizm bölgələrində çay evləri gəncləri, yaşlıları və çoxlu xarici qonaqları qəbul edir. Boğaz boyunca köhnə İstanbulun dar, dolambaçlı xiyabanlarında və Egey dənizi boyunca turistik şəhərlərdə gözəl çay bağları mövcuddur *(Ansel, 2023)*.

Adətə görə, Ərzurumda, Türkiyənin şərqindəki digər regionlarda yerli camaat dil və yanaq arasına bir parça şəkər (qənd) qoyaraq, onu dişləyərək

çay içir. Türklər heç vaxt çayına süd qatmır, bəzən isə limona üstünlük verilir.

Hələ 1878-ci ildə Adana valisi Mehmet İzzət tərəfindən çay içməyin sağlamlığa faydalarını açıqlayan “Çay risalesi” (Çay broşürü) əsəri nəşr etdirilmişdir. Bu dövrdə qəhvə hələ də üstünlük verilən isti içki olsa da, İstanbulun Sultanahmet bölgəsində açılan çay evləri sayəsində çay istehlakı yayılmağa başlamış və qəhvəyə daha ucuz alternativ olmuşdur *(Ansel, 2023)*.

1971-ci ildə çayın becərilməsi və emalının koordinasiyası üçün (Çay Kurumu Genel Müdürlüğü yaradılmışdır, müəssisə 1982-ci ildən Çay İşletmeleri Genel Müdürlüğü adlanır) ÇAYKUR yaradılmış və onun fəaliyyəti çay becərilməsinin genişləndirilməsini, çay emalı texnologiyasındakı yenilikləri izləməyi, lazım gəldikdə çayı idxal və ixrac etməyi əhatə etmək olmuşdur. Bu gün də ÇAYKUR yerli çay satışında mühüm paya malikdir. Məsələn, Rizədəki Ziraat ÇAYKUR Botanika Çay Bağçası dünyaya açılmış bir mədəniyyət qapısıdır. Bura çay bağı və təbiətlə ünsiyyət qurmaq, dostlarla görüşmək və ailə üzvləri ilə yaxşı vaxt keçirmək üçün məşhur yerdir *(Ercisli, 2012)*.

Statistikaya nəzər yetirsək görərik ki, 2004-cü ildə Türkiyə 205,5 min ton çay istehsal etmiş (dünyanın ümumi çay istehsalının təxminən 6,4%-i), bu da ölkəni dünyanın ən böyük çay bazarlarından birinə çevirmişdir; bu məhsulun 120 000 tonu Türkiyədə istehlak edilmiş, qalan hissəsi isə ixrac olunmuşdur. 2013-cü ildən etibarən türk çayının adambaşına istehlakı gündə 10 stəkan və ildə 13,8 kq səviyyəsini ötmüşdür *(Ansel, 2023)*.

Rusiyada çay ənənələri Yapon və ya Çin adətlərindən əsaslı şəkildə fərqlənir. Ətirli çay XVII əsrdə monqol xanının hədiyyəsi olaraq rus çarına gətirilmişdir. XVIII əsrə qədər Monqolustan və Sibir vasitəsilə Rusiyaya çatdırılan çay yalnız kral ailəsi və digər zadəganlar üçün əlyetərli idi. Yalnız XIX əsrdə çay Rusiyada Nijni Novqorod yarmarkasında satılmağa başladı. Sonra Moskvada ilk çayxanalar açıldı. Çay daha əlçatan oldu və insanlar lazımi insanlarla tanış olmaq, söhbət etmək üçün çayxanalara gəlirdilər *(Martin, 2011)*.

Çay cəmiyyətin yuxarı təbəqələrinin həyatına daxil olduqdan sonra Rusiyada çay içmək ənənələri formalaşmağa başladı. Süfrəyə cilalanmış samovar qoyulurdu. Samovar masanın əsas fiquru idi. Kiçik çaydana isə çay yarpaqları tökülür, üstünə isə çayı buxarlamaq üçün qızdırıcı yastıq rolunu oynayan parça örtük qoyulurdu. Şərqdə bu üsul küfr hesab edilsə də, Rusiyada bu varianta üstünlük verilirdi. Zəngin (varlı) insanlar evdə çay içmək üçün çini qablardan istifadə edirdilər. Sovet dövründə isə çayı

stəkanlardan içməyə başladılar. O dövrün əsas ixtirası “stəkantutucu altlıq”lar (podstakannik) idi. Bu, stəkandan isti çayı içib həzz alarkən insanlara əllərini yandırmamaq imkanı verirdi. Altlıqlar adi insanlar üçün mis-nikel ərintisindən, zəngin insanlar üçün isə gümüşdən hazırlanırdı.

İngiltərədə (Böyük Britaniyada) çay içmək ənənələrinin formalaşması XVII əsrin ikinci yarısına təsadüf edir. Bir ingilisin həyatında çay içkisini daimi və geniş yayılmış adətə çevirən dövr gənc kraliça Viktoriyanın hökmranlığı hesab olunur. Ona təkcə Hindistan deyil, həm də Seylon (Şri-Lanka) qara çayının populyarlaşdırılmasına görə borcluyuq. Kraliça Viktoriya “Çay əxlaqı” (“Tea moralities”) adlı əsəri ilə Avropa işgüzar ünsiyyət ənənələrinin əsasını təşkil edən çay etiketinin yazılı qaydalarını müəyyənləşdirmişdir *(Lenkeran State University, 2022)*.

İngiltərədə şübhəsiz ki, sizə bir neçə növ çay seçimi təklif olunacaq, çünki dad üstünlükləri çox fərdidir. Ənənəvi olaraq İngiltərədə çay gündə bir neçə dəfə içilir və günün müxtəlif vaxtları üçün müxtəlif növlərə üstünlük verilir.

Südlü çay ənənəvi olaraq Asiya çöllərində məskunlaşmış monqollar, tatarlar, kalmıklar, qırğızlar və digər köçəri xalqların süfrə mədəniyyətinə xas içki hesab edilir.

Özbəkistanda kütləvi olaraq çay içmək mədəniyyəti XIX əsrdə Daşkənddə yayılmağa başlamışdır. Avropalı səyyahlar öz əsərlərində (səyahətnamələrdə) bu ölkənin hər küncündə rast gəlinən çayxanaları təsvir etmişlər. Çay içmək özbək qonaqpərvərliyinin əsasını təşkil edir. Özünə hörmət edən hər bir özbək qonağı təzə çörək və bir kasa ətirli isti çayla qarşılayır. Bəzi bölgələrdə və paytaxtda xüsusi çay ritualları mövcuddur. İsti çay süfrəyə verilməzdən əvvəl çayın içiləcəyi fincan bir qabda üç dəfə yuyulur və dördüncü dəfə həmin fincana çay süzülərək qonağa verilir; çayın süzüldüyü təmiz fincan qonağa olan dərin hörmətin, saf münasibətin təzahürüdür. Burada xüsusi bir məqam da odur ki, qaba çay az miqdarda tökülür, sözün əsl mənasında 1-2 qurtum üçün. Ev sahibi qonağın fincanına nə qədər tez-tez çay tökürsə, “bu qonaq ev sahibi üçün çox əziz insandır” mənasını ifadə edir *(Martin, 2011)*.

Pakistanda həm qara, həm də yaşıl çay növləri məşhurdur. Mərkəzi və cənubi Pəncabda, həmçinin Sind əyalətində süd və şəkər əlavə edilmiş çay (bəzən püstə, hil və s. ilə) geniş şəkildə istehlak edilir və adətən sadəcə “çay” adlanır. Bu, bölgədə ən çox yayılmış məişət içkisidir. Pakistanın şimalındakı Çitral və Gilgit-Baltistan bölgələrində kərə yağı ilə Tibet üslubunda duzlu çay içilir. Kəşmirdə isə Kəşmir çayı (Noon chai və ya

Sheer chai) və ya qızılgül, püstə, badam, hil və bəzən darçın əlavə edilmiş qaymaqlı çay xüsusi günlərdə, toylarda və qış aylarında istehlak edilir.

Hindistan dünyada özünəməxsus çay mədəniyyəti ilə məşhur olan ölkədir. Hindistanda 350-dən çox çay növü istehsal olunur. Dünyanın ən böyük ikinci çay istehsalçısı olan ölkədə əsasən qara, yaşıl, ağ, ətirli və meyvəli çaylar yetişdirilir. Əsas istehsal qara çay olsa da, Assam və Darjeeling kimi bölgələrdə yüksək keyfiyyətli xüsusi sortlar da becərilir. Hindistanda çay ölkədə ən məşhur isti içkidir. Demək olar ki, bütün evlərdə gündəlik istehlak edilir, qonaqlara təqdim olunur, məişət və rəsmi şəraitdə geniş miqdarda istifadə edilir. Bu ölkədə çay, ədviyyatlı və ya ədviyyatsız olaraq, südlə hazırlanır və adətən şirinləşdirilir *(Martin, 2011)*.

İran mədəniyyətində çay o qədər geniş istifadə olunur ki, adətən ev qonağına təklif edilən ilk şey çay olur. Çay şəkər əvəzinə kişmiş, əncir və ya badamla içilir, ədviyyatlar (hil, darçın və s.) da əlavə edilir.

Şimali Afrikanın bəzi ərəb mənşəli xalqları nanə yarpağı və şəkərlə qarışdırılmış yaşıl çay içirlər, həmçinin limon, portağal və ya qreypfrut suyu ilə buzlu çay içirlər.

Amerika Birləşmiş Ştatlarında çayın 80%-i buzlu çay kimi istehlak edilir (Lifetime Tea, 2020). Şirin çay Amerika Birləşmiş Ştatlarının Cənub-Şərqinin ən xarakterik içkilərindən biridir. ABŞ-da çay istehsalı çox məhdud olsa da, xüsusilə Cənubi Karolina və Havay kimi bölgələrdə kiçik miqyaslı təsərrüfatlar mövcuddur. Ölkə, əsasən, çay idxal edən (1990-cı ildən 400%-dən çox artım) və istehlak edən böyük bir bazardır. Yerli istehsal daha çox premium və ya xüsusi çay növlərinə fokuslanır *(Martin, 2011)*.

Beləliklə, müxtəlif ölkələrin çay mədəniyyəti ilə tanış olduqca aydın olur ki, çay əksər hallarda sosial tədbirlərdə və qonaqpərvərlik mərasimlərində istehlak edilir. Bir çox mədəniyyətlərdə isə bu içki ətrafında incə və formal mərasimlər formalaşmışdır.

***Azərbaycanın çay mədəniyyəti və onun yerli turizm üçün əhəmiyyəti***

Qonaqpərvərliyi ilə məşhur olan Azərbaycanda və azərbaycanlılar arasında sevimli adətlərdən biri çay süfrəsi və çay mədəniyyətidir. Bir fincan çay və söhbət zamanı yerli sakinlər uzun müddət asudə zaman keçirməyə hazırdırlar. Çay ənənəvi armudu stəkanda (armud formalı stəkanda) verilir. Bu forma sayəsində çay adi stəkanla müqayisədə daha yavaş soyuyur, çünki şüşənin aşağı hissəsində maye yuxarı hissəyə nisbətən istiliyini daha uzun müddət saxlayır. Azərbaycanlılar üçün çay dəmləmək həqiqi sənət hesab oluna bilər *(Isaxanli, 2023)*.

Paytaxt Bakının gəzinti üçün nəzərdə tutulmuş əksər küçəsində çayxanalar mövcuddur. Yaşayış olan məhəllələrində isə küçədə yerli

sakinlərin bir stəkan ətirli və dadlı çay ətrafında nərd oynayan böyük yığıncaqlarını görmək olar. Adət-ənənəyə görə, yerli sakinlər şəkəri çaya batıraraq dişləyir və sonra çay içirlər. Çay ilə müxtəlif şərq ləzzətləri, mürəbbələr və şirniyyatlar verilir; bunu "çay dəstgahı" adlandırırlar. Burada "dəstgah" çayın sadalanan nemətlər ilə dəst şəkildə təqdim olunması mənasını ifadə edir.

Azərbaycanın Lənkəran bölgəsində çay bitkisi ilk dəfə 1912-ci ildə əkilməyə başlanmışdır. 1937-ci ildə isə Lənkəranda ilk çay zavodu tikilmişdir *(Bağırov, 1993)*.

Respublikamızda çayçılığın təşkilinin, çay istehsalının tənzimlənməsinin və çay məhsullarının keyfiyyətinin təmin edilməsinin hüquqi əsaslarını müəyyən edən "Çayçılıq haqqında" Azərbaycan Respublikasının Qanunu 2002-ci ildə qəbul edilmişdir *(E-qanun.az, 2002)*.

Çayçılıq Lənkəranın subtropik zonasındakı kənd təsərrüfatının prioritet istiqamətlərindən biridir. Azərbaycan iqtisadiyyatında mühüm yer tutan çay Lənkəranın simvolu kimi bölgəyə şöhrət gətirməkdədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci ilin 2-3 sentyabr tarixlərində Lənkərana səfəri zamanı keçirilmiş çay, çəltik və sitrus meyvələri istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsinin yekunları çayçılığın inkişafına güclü təkan vermişdir.

Ümumiyyətlə, Lənkəran-Astara regionunda "Astaraçay" MMC, "Yaşıl çay" MMC, "Azərsun Holdinq", "Beta" MMC, "Fərman çay" MMC, "Tüado çay" MMC, "Gilan Orchards" MMC, "Ayna" MMC və Lənkəran Çay Elmi-Təcrübə bazası kimi ixtisaslaşmış çayçılıq təsərrüfatları və çay istehsal edən müəssisələr fəaliyyət göstərir. Məsələn, "Astaraçay" kənd təsərrüfatı müəssisəsi 2010-cu ildə yaradılmışdır. Təsərrüfatın ümumi əkin sahəsi 640 hektardır. Əkilən "Kolxida" çay toxumları Gürcüstanın Batumi şəhərində yerləşən Çayçılıq Elmi-Tədqiqat İnstitutunun tədris-təcrübə sahəsindən gətirilmişdir. Burada, həmçinin Koreya Respublikası şirkətinin layihəsi əsasında çay fabriki inşa edilmişdir *(Lenkeran State University, 2022)*.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018–2027-ci illər üçün Dövlət Proqramı" çay mədəniyyətimizin təbliği və turizm potensialının reallaşdırılması baxımından yeni imkanlar yaratmışdır *(Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 2018)*.

“Azərbaycan Respublikasında turizmin inkişafına dair” Dövlət Proqramlarında kənd, idman, ailəvi və digər xüsusi maraq kəsb edən turizm növlərinin inkişafına dair tədbirlər öz əksini tapmışdır.

Etnoqrafik turizm nümunəsi kimi Azərbaycanda keçirilən elçilik mərasimlərində çayın xüsusi yer tutmasını, razılıq əlaməti kimi şirin çayın içilməsini göstərmək olar.

Ötən illərdə Mədəniyyət və Turizm Nazirliyinin (20 aprel 2018-ci il tarixindən Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi adlanır) “Azərbaycanın yeni turist marşrutlarını kəşf edək” layihəsi çərçivəsində təqdim olunmuş Quba-Şamaxı ekstremal turizm marşrutu maraqlı addımlardan biri olmuşdur. Artıq subtropik zonaya xüsusi coğrafi marşrutların hazırlanması zərurətə çevrilmişdir.

Qastronomik turizm istənilən dövlətə milli kulinariya ənənələri prizmasından baxmağa imkan verən parlaq və perspektivli istiqamətdir. İstənilən qastronomik tur müstəqil şəkildə, turizm agentliklərinin köməyi olmadan təşkil oluna bilər. Bunun üçün, sadəcə olaraq, çayçılıq mədəniyyətimizi maraqlı və gözəl tərzdə əks etditə biləcək müvafiq marşrutu seçib turizm mərkəzlərini cəlb etmək lazımdır.

Azərbaycan turizminin bu istiqamətdə nəzəri-praktiki bazaya ehtiyacı vardır. İlk növbədə Azərbaycanda çay əkinçiliyi və istehsalının tarixi və iqtisadiyyatı ilə yaxından tanış olmaq, regionlarda çay və çay süfrəsi ənənələrinin fərqli və oxşar xüsusiyyətlərini izləmək, həmçinin dünya xalqlarının çay mədəniyyəti ilə müqayisəli təhlil aparmaq zəruridir. Çünki çay 3000 il yaşı olan içki kimi zəngin adət-ənənələrin və əfsanələrin mənbəyidir.

## NƏTİCƏ

Azərbaycanın çay mədəniyyəti Böyük ipək yolu ənənələrindən qaynaqlanan, lakin müasir dövrdə də aktuallığını qoruyan milli dəyərlər sisteminin mühüm tərkib hissəsidir. Bu mədəniyyətin 2022-ci ildə Türkiyə ilə birlikdə UNESCO-nun “Qeyri-maddi mədəni irs siyahısı”na daxil edilməsi onun beynəlxalq səviyyədə tanınmasının bariz nümunəsidir.

Dünya xalqlarının çay ənənələri ilə müqayisə göstərir ki, çay hər yerdə sosial və mədəni ritual kimi qəbul edilir.

Azərbaycanın çay mədəniyyəti yalnız milli irs deyil, həm də turizmin perspektivli istiqamətidir. Etnoqrafik və qastronomik turizm çərçivəsində çay süfrəsi, çayxanalar, Lənkəran çay plantasiyaları yeni turist marşrutlarının yaradılmasına geniş imkanlar açır. Bu istiqamətdə nəzəri-praktiki baza yaradılması, müqayisəli tədqiqlərin aparılması və dövlət proqramlarının davamlı icrası Azərbaycan turizminin rəngarəngliyini

artıracaq, milli mədəniyyəti beynəlxalq səviyyədə daha effektiv təbliğ edəcəkdir.

Beləliklə, çay mədəniyyəti Azərbaycan üçün həm keçmişlə gələcəyi birləşdirən körpü, həm də turizm inkişafının vacib vasitəsidir.

## ƏDƏBİYYAT

Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı. (2018). *"Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018–2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*. https://president.az/az/articles/view/27023

Ansel, E. (2023). *The global history of the Ottoman and Turkish tea trade* (Doctoral dissertation, Bilkent Universitesi (Turkey)).

Bağırov, A. (1993). *Azərbaycan çayı*. Azərnəşr. https://web2.anl.az/read/page.php?bibid=41691&pno=1

E-qanun.az. (2002). *"Çayçılıq haqqında" Azərbaycan Respublikasının Qanunu*. https://e-qanun.az/framework/5525

Ercisli, S. (2012). *The tea industry and improvements in Turkey. In Global Tea Breeding: Achievements, Challenges and Perspectives* (pp. 309-321). Berlin, Heidelberg: Springer Berlin Heidelberg.

Fuquan, Y. (2004). The "Ancient Tea and Horse Caravan Road," the "Silk Road" of Southwest China. *Silk Road Journal, 2*(1).

Isaxanli, H. (2023). Tea, coffee and cocoa-a cultural phenomenon in Azerbaijan. *Khazar Journal of Humanities and Social Sciences, 26*(4), 100-118.

Kumakura, I. (2023). *Japanese Tea Culture: The Heart and Form of Chanoyu*. https://www.jstor.org/content/pdf/oa_book_monograph/jj.2840648

Lenkeran State University. (2022). *International Tea Congres "Industrial, cultural and economic dimensions"*. https://lsu.edu.az/new/imgg/%C3%87AY%20K%C4%B0TAP.pdf

Lifetime Tea. (2020). *Tea fact sheet – 2018-2019*. https://www.lifetimetea.com/tea-fact-sheet

Maharramov, M. A., Jahangirov, M. M., & Maharramova, S. I. (2020). Azerbaijan tea (Camellia sinensis L.): chemical components, pharmacology and the dynamics of the amino acids. In *Tea-Chemistry and Pharmacology*. IntechOpen.

Martin, L. C. (2011). *Tea: the drink that changed the world*. Tuttle Publishing.
UNESCO. (2022). *Culture of Çay (tea), a symbol of identity, hospitality and social interaction*. Representative List of the Intangible Cultural Heritage of Humanity. https://ich.unesco.org/en/RL/culture-of-cay-tea-a-symbol-of-identity-hospitality-and-social-interaction-01685

**Ilaha Azer gizi Aghazade**
*Employee of the Central Scientific Library of ANAS*
***E-mail:*** ilahe.agazade.00@mail.ru
*https://orcid.org/0000-0002-4347-1211*

## TEA CULTURE AND ITS PLACE IN AZERBAIJANI TOURISM

***Abstract:*** *Since 2019, the member states of the United Nations have annually celebrated May 21 as International Tea Day, dedicated to one of the oldest and healthiest beverages on Earth - tea. A substantial body of literature and publications exists on the national tea traditions and tea-drinking customs of the world's peoples. The earliest documented information on tea consumption dates back to the 3rd century BC in China. In the 16th century, Portuguese traders began importing tea to Europe, where it quickly became fashionable in aristocratic circles and royal courts. During the 19th century, tea trade between Western countries and China expanded significantly, leading to the formation of a tea industry in Europe and America.*

*Our homeland, Azerbaijan, also possesses a distinctive tea culture, along with unique tea-drinking ceremonies and traditions. Promoting this rich cultural heritage through various forms of tourism - particularly ethnographic and gastronomic tourism - represents an important task in presenting Azerbaijan's national values and identity to the global community. This is due to the inherently humanistic, benevolent, and hospitable mission embedded in Azerbaijani tea culture.*

***Keywords:*** *Azerbaijani tourism, tea culture, ethnographic tourism, gastronomic tourism, hospitality.*

**Илаха Азер кызы Агазаде**
*Сотрудник Центральной научной библиотеки НАНА*
***Электронная почта:*** ilahe.agazade.00@mail.ru
*https://orcid.org/0000-0002-4347-1211*

# ЧАЙНАЯ КУЛЬТУРА И ЕЕ МЕСТО В АЗЕРБАЙДЖАНСКОМ ТУРИЗМЕ

***Резюме:*** *С 2019 года государства - члены Организации Объединённых Наций ежегодно 21 мая отмечают Международный день чая, посвящённый одному из древнейших и наиболее полезных напитков на Земле - чаю. Существует обширный массив материалов и публикаций о национальных чайных традициях и обычаях чаепития народов мира. Первые сведения об употреблении чая относятся к III веку до н.э. (Китай). В XVI веке португальские купцы начали привозить чай в Европу, где он быстро вошёл в моду в аристократических кругах и королевских дворах. В XIX веке торговля чаем между западными странами и Китаем приобрела широкий размах, что привело к формированию чайной промышленности в Европе и Америке.*

*Наша родина - Азербайджан - также обладает самобытной чайной культурой, особыми церемониями и традициями чаепития. Продвижение этого богатого культурного наследия через различные виды туризма (этнографический, гастрономический и др.) является важной задачей с точки зрения представления национальных ценностей и самобытности Азербайджана мировому сообществу. Это обусловлено гуманистической, доброжелательной и гостеприимной миссией азербайджанской чайной культуры.*

***Ключевые слова:*** *Азербайджанский туризм, чайная культура, этнографический туризм, гастрономический туризм, гостеприимство.*

**Məqalə tarixçəsi:** redaksiyaya daxil olub – 11.09.2025; çapa qəbul edilib – 10.10.2025.



## MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ!

*"Kitabxana.az" jurnalının redaksiyasına təqdim edilən elmi məqalələr aşağıdakı qaydalar əsasında tərtib edilməlidir:*

1. Məqalənin adı, müəllifin adı və soyadı, çalışdığı qurum, vəzifəsi, elmi dərəcəsi, elektron poçt ünvanı və ORCID (2012-ci ildən bəri beynəlxalq elm aləmində qəbul edilmiş internetdə hərkəsə açıq olan Tədqiqatçı və İştirakçı Eyniləşdiricisi) göstərilməlidir.
2. Məqalə azərbaycan, ingilis və rus dillərində qəbul olunur.
3. Məqalə 50 sözdən artıq olmayan xülasəyə, 4-dən az olmayan açar sözə malik olmalıdır.
4. Məqalə A4 formatında, Microsoft Word proqramında (şrift - Times New Roman – 12; interval - 1,5; səhifənin parametrləri: yuxarıdan – 2 sm, aşağıdan – 2 sm, soldan - 2,5 sm, sağdan – 2,5 sm) yığılmalıdır.
5. Əgər mətndaxili sitatlar təkmüəllifli əsərə istinad edirsə: Müəllifin soyadı (insialsız) və nəşr ili kursivlə qeyd olunmalıdır, məsələn, *(Əliyev, 2020)*.
   Mətndaxili sitatlar ikimüəllifli əsərə istinad edirsə: Hər iki müəllifin soyadı və nəşr ili kursivlə yazılmalıdır, məsələn, *(Əliyev & Məmmədov, 2021)*.
   Çoxmüəllifli əsərə istinad olunursa: Əgər əsərin ikidən çox müəllifi varsa, kursivlə birinci müəllifin soyadı, ardınca isə "et al." (lat. və digərləri) qeyd olunmalıdır, məsələn, *(İslamova et al., 2022)*.
6. Ədəbiyyat (istinad) siyahısında son 5-10 il ərzində nəşr olunmuş elmi əsərlərə istinad edilməsi tövsiyə olunur.
   İstinad siyahısı Amerika Psixoloji Assosiasiyasının (APA) üslublu sənəd təsviri qaydalarına uyğun hazırlanmalıdır.
   İstinad siyahısı əlifba sırası və yaxud istifadə olunma ardıcıllığına görə sıralanmalıdır.
7. Jurnala təqdim olunan məqalələr:
   - əvəllər dərc olunmamalı;
   - heç bir digər jurnala dərc olunmaq üçün təqdim edilməməlidir.
8. Məqalənin dərc olunmaq üçün qəbul edilib-edilməməsi məsələsi redaksiya heyətinin müzakirəsindən sonra bəlli olur.
9. Əlyazmanın məzmunu və yazılışı üçün yalnız müəlliflər cavabdehlik daşıyırlar.
10. Müəlliflər məqalələri elektron şəkildə shafaq.ace@gmail.com ünvanına göndərə bilərlər.

# ATTENTION TO AUTHORS!

*Scientific articles submitted to the editorial office of the journal "Kitabxana.az" must be compiled taking into account the following rules:*

1. It is necessary to indicate the title of the article, the first and last name of the author, institution, position, academic degree, e-mail address and ORCID.
2. The article is accepted in Azerbaijani, English and Russian.
3. The article should contain an abstract of no more than 50 words and no less than 4 keywords.
4. The article should be written in A4 format, in Microsoft Word (font - Times New Roman - 12; spacing - 1.5; page settings: top - 2 cm, bottom - 2 cm, left - 2.5 cm, right - 2.5 cm).
5. <u>If in-text citations refer to a single author:</u> The author's last name (without initials) and year of publication should be written in italics, e.g., *(Aliyev, 2020)*.
   <u>Two authors:</u> Both authors' last name and year of publication should be written in italics, e.g., *(Aliyev & Mammadov, 2021)*.
   <u>More than two authors:</u> If the reference has more than two authors, the first author should be listed in italics, followed by "et al.", e.g., *(Islamova et al., 2022)*.
6. It is recommended to indicate scientific works published in the last 5-10 years in the list of references.
7. Articles submitted to the journal:
   - earlier should not be published anywhere;
   - should not be submitted for publication in any other journal.
8. The issue of accepting an article for publication becomes clear after discussion by the editorial board.
9. The authors are solely responsible for the content and writing of the manuscript.
10. Authors may submit articles electronically to shafaq.ace@gmail.com.

# ВНИМАНИЕ АВТОРАМ!

*Научные статьи, представляемые в редакцию журнала «Kitabxana.az», должны быть составлены с учетом следующих правил:*

1. Необходимо указать название статьи, имя и фамилию автора, учреждение, должность, ученую степень, адрес электронной почты и ORCID (открытый для всех в интернете Идентификатор Исследователя и Участника, принятый в международном научном мире с 2012 г.).
2. Статья принимается на азербайджанском, английском и русском языках.
3. В статье должно быть резюме не более 50 слов и не менее 4 ключевых слов.
4. Статья должна быть написана в формате А4, в программе Microsoft Word (шрифт - Times New Roman - 12; интервал - 1,5; параметры страницы: сверху - 2 см, снизу - 2 см, слева - 2,5 см, справа - 2,5 см).
5. Если внутритекстовые цитаты относятся к одному автору: Фамилия автора (без инициалов) и год публикации должны быть написаны курсивом, например, *(Алиев, 2020)*.

   Два автора: Фамилия обоих авторов и год публикации должны быть написаны курсивом, например, *(Алиев & Мамедов, 2021)*.

   Более двух авторов: Если в ссылке более двух авторов, курсивом следует указать первого автора, а затем «et al.» (лат. и др.), например, *(Исламова et al., 2022)*.
6. Рекомендуется указывать в списке литературы научные работы, опубликованные за последние 5-10 лет.

   Список литературы должен быть подготовлен в соответствии с правилами описания документов в стиле «APA», разработанными Американской психологической ассоциацией.

   Список литературы должен быть составлен в алфавитном порядке или в порядке использования.
7. Статьи, представленные в журнал:
   - ранее нигде не должны быть опубликованы;
   - не должны быть представлены для публикации в какой-либо другой журнал.
8. Вопрос о принятии статьи к публикации становится ясным после обсуждения на редколлегии.
9. Авторы несут полную ответственность за содержание и написание

рукописи.

10. Авторы могут отправлять статьи в электронном виде по адресу shafaq.ace@gmail.com.

# M Ü N D Ə R İ C A T

================================================================

## *KİTABXANA İŞİNİN TARİXİ*

**Şəfəq İSLAMOVA**
Professor Xəlil İsmayılovun elmi irsi: Azərbaycan kitabxanaşünaslığına töhfə ........................................................................................................5

**Eldəniz MƏMMƏDOV**
Professor Xəlil İsmayılov: Azərbaycanın aparıcı kitabxanaşünas aliminin 80 yaşı tamam olur ......................................................................................16

**Gülnar İBRAHİMOVA-MƏMMƏDOVA**
Professor Xəlil İsmayılov və Azərbaycan kitabxanaşünaslığının inkişafı: anadan olmasının 80 illiyi münasibətilə ....................................................24

## *HUMANİTAR VƏ SOSİAL ELMLƏR TARİXİ*

**Mahir ZEYNALOV**
Azərbaycanda sahibkarlığın inkişafında innovativ yanaşmalar və onların rəqabət qabiliyyətinə təsiri ......................................................................32

**İlahə AĞAZADƏ**
Çay mədəniyyəti və onun Azərbaycan turizmindəki yeri ...........................42

# C O N T E N T S

===========================================================

### *HISTORY OF LIBRARIANSHIP*

**Shafag ISLAMOVA**
The scientific heritage of professor Khalil Ismayilov: contributions to library science in Azerbaijan ........................................................................5

**Eldaniz MAMMADOV**
Professor Khalil Ismayilov: leading Azerbaijani library scholar turns 80 ..........................................................................................................16

**Gulnar IBRAHİMOVA-MAMMADOVA**
Professor Khalil Ismayilov and the development of Azerbaijani library science: on the occasion of his 80th birthday .............................................24

### *HISTORY OF HUMANITIES AND SOCIAL SCIENCES*

**Mahir ZEYNALOV**
Innovative approaches to entrepreneurship development in Azerbaijan and their impact on competitiveness .................................................................32

**Ilaha AGHAZADE**
Tea culture and its place in Azerbaijani tourism ........................................42

# С О Д Е Р Ж А Н И Е

==========================================================

## *ИСТОРИЯ БИБЛИОТЕЧНОГО ДЕЛА*

**Шафаг ИСЛАМОВА**
Научное наследие профессора Халила Исмаилова: вклад в библиотековедение Азербайджана ........................................................5

**Эльданиз МАМЕДОВ**
Профессор Халил Исмаилов: ведущему Азербайджанскому ученому-библиотековеду исполняется 80 лет .....................................................16

**Гюльнар ИБРАГИМОВА-МАМЕДОВА**
Профессор Халил Исмаилов и развитие Азербайджанского библиотековедения: к 80-летию со дня рождения ................................24

## *ИСТОРИЯ ГУМАНИТАРНЫХ И СОЦИАЛЬНЫХ НАУК*

**Махир ЗЕЙНАЛОВ**
Инновационные подходы к развитию предпринимательства в Азербайджане и их влияние на конкурентоспособность .......................32

**Илаха АГАЗАДЕ**
Чайная культура и ее место в Азербайджанском туризме ...................42

# KİTABXANA.AZ

elmi-nəzəri və təcrübi jurnal

***2025, Oktyabr, №2(43)***

****

**VÖEN:** 1600740921

**Təsisçi  və baş redaktor:** İslamova Şəfəq İsrafil qızı

**Redaktor:** Məmmədov Eldəniz Elman oğlu

**Redaksiyanın ünvanı:** AZ1096, Bakı ş., K.Balakişiyev küç. 161/15

**Tiraj:** 100 nüsxə

**Qiyməti:** Pulsuz